***Azərbaycan Respublikasının***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə***
***Dövlət Komitəsi sədrinin***
***27 noyabr 2024-cü il tarixli***
***3-30/3-1-435/2024 nömrəli əmri ilə təsdiq edilmiş Əsasnaməyə***
***1 nömrəli əlavə***

# "Uşaq Səfirlər Məktəbi" təcrübə proqramı

## 1. Ümumi məlumat

“Uşaq Səfirlər Məktəbi” təcrübə proqramı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin layihəsi əsasında fəaliyyət göstərən Uşaq Səfirlər Məclisi *(bundan sonra Məclis)* daxilində proqramdır. Artıq 3-cü ildir ki fəaliyyət göstərən proqramın məqsədi uşaqlar arasında liderlik qabiliyyətini, nitq bacarıqlarını, əməkdaşlıq və innovativ düşüncə tərzini inkişaf etdirməkdir.

## 2. Proqrama qoşulma qaydaları

“Uşaq Səfirlər Məktəbi” təcrübə proqramına 12-16 yaş aralığında olan uşaqlar qəbul edilir. Müsahibə elanları Məclisin rəsmi saytında və sosial şəbəkələrində paylaşılır. Müraciət etmək istəyən şəxslər qeydiyyatdan keçərək müraciətlərini təsdiqləyirlər. Müsahibənin tarixi və saatı ilə bağlı qeydiyyatdan keçmiş şəxslərə öncədən məlumat verilir. Uğun bilinən şəxslər müsahibədən keçərək proqrama qoşulurlar.

## 3. Proqarmın fəaliyyəti

Proqramın müddəti 3 aydır. İştirakçılar 3 əsas departament *(Uşaqlarla iş departamenti, Layihələrin idarəedilməsi departamenti və İKT departamenti)* üzrə seçilir və hər departamentdə 5 könüllü fəaliyyət göstərir. Seçilən könüllülər tədbirlərin təşkilində iştirak edib, uşaq səfirlərlə birgə çalışaraq kommunikasiya, liderlik və sosial bacarıqlarını inkişaf etdirirlər.

## 4. Proqramın yekunu

Proqram 3 ayın sonunda yekunlaşacaq və iştirakçılar sertifikatla təmin olunur.

## 5. Xitam verilmə

Aşağıdakı hallarda seçilmiş könüllünün fəaliyyətinə vaxtından əvvəl xitam verilir:

1. Etik davranış qaydalarını kobud surətdə pozduqda;
2. Subordinasiya qaydalarına əməl etmədikdə;
3. Keçirilən iclaslarda üzrlü səbəb göstərmədən 2 dəfə iştirak etmədikdə;
4. Məlumat vermədən digər təşkilatlara üzv olduqda;
5. Uşaq Səfirlər Məclisinin nüfuzunu aşağı sala biləcək paylaşım və davranışlara yol verdikdə.

*Vaxtından əvvəl fəaliyyətinə xitam verilmiş könüllüyə sertifikat verilmir.*